**Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Yoxsulluğun Azaldılması Strategiyası üzrə Sənədin hazırlanması üçün İsveçrə qrantı üzrə Məktub-Sazişin imzalamaq səlahiyyətinin verilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Yoxsulluğun Azaldılması Strategiyası üzrə Sənədin hazırlanması üçün İsveçrə qrantı üzrə Məktub-Sazişin Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Məktub-Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Fərhad Şövlət oğlu Əliyevə verilməsi barədə Beynəlxalq İnkişaf Assosiasiyasına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 18 aprel 2002-ci il
901